# Azərbaycan Respublikası
# Elm və Təhsil Nazirliyi

## Bakı Şəhəri üzrə Təhsil İdarəsi

TDM

Təlimə Dəstək Mərkəzi

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bakı Şəhəri üzrə Təhsil İdarəsi

TDM
Təlimə Dəstək Mərkəzi

# MƏKTƏB – VALİDEYN ƏMƏKDAŞLIĞI



1. Günəş
2. 5 və ya 6 cərgəli qala
3. Əlcək
4. 2 xəttli çətir
5. Göydə uçan gözəl qağayı

# Məktəb psixoloqu

- ✓ Şagirdlər
- ✓ Valideynlər
- ✓ Müəllimlər



# Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydalar !

1. Ümumi müddəalar

2. Psixoloji xidmətin əsas məqsədləri

2.1. Psixoloji xidmət valideynlər və ya digər qanuni nümayəndələr, təhsil müəssisəsinin rəhbərliyi və pedaqoji işçiləri ilə əməkdaşlıq vasitəsilə təhsilalanların psixoloji vəziyyətinin, təhsil fəaliyyətinin, sosial-mənəvi problemlərinin öyrənilməsini və onlara psixoloji dəstəyin göstərilməsini, onların proqressiv psixi inkişafını, meyil, maraq və potensialının reallaşdırılmasını, habelə mümkün psixi pozuntuların profilaktikasını təmin edir.

2.2. Psixoloji xidmətin təşkilində əsas məqsəd aşağıdakılardan ibarətdir:

2.2.1. təhsilalanların akademik nailiyyətlərinin artırılması;

2.2.2. təhsilalanlarda müsbət davranış modelinin formalaşdırılması;

2.2.3. təhsil müəssisəsində təhlükəsiz və sağlam mühitin yaradılması;

2.2.4. təhsilalanların mənəvi-psixoloji sağlamlığının dəstəklənməsi;

**2.2.5. ailə-təhsil müəssisəsi münasibətlərinin tənzimlənməsi.**





# Valideyn-məktəb əməkdaşlığı nədir?

- Təhsildə nailiyyət təkcə müəllimlərin fəaliyyətindən deyil, məktəbin valideynlərlə əlaqəsindən də asılıdır.
- Müəllim və valideynlər uşaqların təlim-tərbiyəsinə, inkişafına bərabər təsir göstərdiyindən onların fəaliyyətinin qarşılıqlı əlaqələndirilməsi zəruridir. Bu əlaqələndirmənin əsas vasitəsi isə valideyn iclaslarıdır.
- İl ərzində valideyn iclaslarının keçirilmə qrafikləri müəyyənləşdirilməlidir. Bəzən operativ xəbərlərin çatdırılması məqsədilə qrafikdən kənar iclaslar keçirilə bilər.

- Qeyd: Valideyn iclaslarında şikayət xarakterli məsələlərin təklikdə müzakirə olunması zəruridir. Hər hansı bir şagirdin təlim nəticələrinin, davranışının ümumi müzakirəsinə yol verilməməlidir. Ümumi şəkildə valideynlərə tədrisin keyfiyyət səviyyəsinin inkişafı ilə bağlı həyata keçiriləcək tədbirlər, psixoloji dəstək, təhsildə baş verən yeniliklər, şagirlərin qiymətləndirilməsi üsulları və s. haqqında maarifləndirici məlumatlar verilməlidir.

# Valideyn iclaslarının əsas məqsədi nədir?

- ✓ Sinifdə mövcud olan psixoloji-emosional vəziyyətlə valideynlərin tanış edilməsi;
- ✓ Uşaqların təhlili və tərbiyəsinə aid problemlərin həlli yollarını müəllimlərlə valideynlərin birlikdə axtarıb tapmaq;
- ✓ Valideynləri pedaqoji-psixoloji cəhətdən maarifləndirmək;
- ✓ Valideynləri sinfin həyatında iştiraka stimullaşdırmaq;
- ✓ Şagirdlərin təlim və tərbiyəsinə görə məsuliyyət hissini artırmaq;



# Valideynlərlə korporativ münasibətlərin möhkəmləndirilməsi üçün strategiyalar

- Tədris ilinin öncəsi pozitiv salamlama məktubu;
- Valideynlərlə ilk ünsiyyətin pozitiv alınmasına çalışmaq;
- Valideynə şagirdin irəliləyişi haqqında qeydlər göndərmək;
- Sinif saytının və ya xəbər bülleteninin yaradılması;
- Pozitiv valideyn iclası;
- Pozitiv məzmunlu zəng, imail, mesaj;
- Formativ dəftər qeydləri;
- Valideynin sinif fəaliyyətlərinə qatılması və s.

# Valideynlərlə düzgün münasibətin qurulması

- Təşəbbüsü ələ almaq
- Təkidli (israrlı) olmaq
- Ailə ilə empatiya yaratmaq
- Valideynlərlə fərdi söhbət və məxfiliyi qorumaq
- Valideyni anladığınızı göstərmək



# Valideynin məktəbə cəlb olunmasına maneə törədən bəzi amillər

- Valideyn iclaslarının ümumi keçirilməsi və konfedensiallığın gözlənilməməsi;
- Valideynin iş saatının çox olması səbəbidən övladının təhsilinə vaxt ayıra bilməməsi;
- Müəllimin valideynlə onun övladı ilə bağlı münasibətin qurulmasına laqeyd yanaşması və ya bunu gərəksiz sayması və s.



## Sendviç metodu



- ✓ Psixoloji nöqteyi nəzərdən iclasın müsbət, pozitiv məsələlərin müzakirəsi ilə başlamaq, sonra isə problemlərdən söz açmaq lazımdır
- ✓ Valideynlərlə sakit və nəzakətlə danışmaq lazımdır

## Səriştəli valideynlər proqramı





- ✓ Problemli məsələlərin müzakirəsi zamanı daha çox nüfuza malik olan valdeynlərin həyat və pedaqoji təcrübəsinə istinad etmək

# Ümumtəhsil məktəblərində tədrisin keyfiyyət səviyyəsinə təsir edən amillər

Ümumtəhsil müəssisələrində tədrisin keyfiyyət səviyyəsinə valideynlərin təhsilli olması birbaşa təsir göstərir.Təhsil almış valideynin övladının bilik və bacarıq səviyyəsi əsasən digərlərindən əhəmiyyətli dərəcədə fərqlənir.Əks halda isə müəllim-şagird-valideyn üçbucağı pozulur,müəllim tədris yükünü tək daşımağa məcbur olur.Belə hallarda mütləq valideynlər üçün mütəmadi maarifləndirici seminarlar və ya görüşlər təşkil edilməli,övladlarına dəstək ola bilmələri üçün yollar öyrədilməlidir.Savadlı valideyn keyfiyyətli təhsilə təminatdır.

# Problemli valideynlər ilə ünsiyyətin təşkili

- Valideyn ilə müəllim arasında problemli vəziyyət yarandığı halda (fikir ayrılığı,anlaşılmamazlıq və s.)müəllim ilk növbədə valideyni sakitləşdirməyə çalışmalıdır.
- Əsəbi halda heç kimə haqlı olduğunuzu sübut edə bilməzsiniz.
- Valideyn ayaq üstündə dayanıbsa ona əyləşməyi təklif edin və daha sonra valideyn ilə ünsiyyətdə «sehrli sözlərdən»(əlbəttə,siz də haqlısınız,başa düşürəm,sizi dəstəkləyirəm və s.)istifadə edərək sanki onu təsdiqləyirsizmiş kimi davranın.
- Onun sözlərini təsdiqlədiyinizi və əks arqument gətirmədiyinizi görüb valideyn sakitləşəcək.
- Bu mərhələni uğurla keçdikdən sonra problemi yaradan əsas səbəbləri xoş ünsiyyət tərzində ifadə edin.
- Valideyni dəstəklədiyinizi və ondan da eyni münasibəti gözlədiyinizi hiss etdirin.
- Onun köməyinə ehtiyacınız olduğunu vurğulayın.
- Valideynə ilk mərhələdən haqlı olduğunuzu sübut etməyə çalışsanız haqlı olduğunuz halda haqsız vəziyyətə düşmək ehtimalınız olduqca yüksək olacaqdır.
- Hər bir halda soyuqqanlı olmağa çalışıb vəziyyəti öz leyhinizə dəyişməyi bacarmalısınız.
- Unutmayın ki,əsas məsələ haqlı olduğunuzu sübut etmək deyil,mövcud problemi həll etməkdir!
- Qeyd:Verdiyimiz nümunə müəllimin həqiqətən haqlı olduğu situasiyalara aid edilir. Müəllim valideyn və ya digər qanuni nümayəndələrlə hörmətlə və nəzakətlə davranmalıdır.

# Psixoloqun məktəbdə nəzarət edəcəyi vacib istiqamət

**VMA (Valideyn-Müəllim-Assosiasiyası) ilə əməkdaşlıq, məktəbin ailə və ictimaiyyətlə apardığı işin təşkilində yaxından iştirak etmək**



# Nasa alimlərinin araşdırması

**NASA alimləri 1600 uşağı bir neçə il aralıqla sınaqdan keçirdi. Nəticələr heyrətamiz idi.**

- ✓ 4-5 yaşlı uşaqların 98%- «yaradıcı dahilər» qrupuna daxil oldu
- ✓ 10 il sonra onlardan yalnız 30%-i «dahi» olaraq qaldı
- ✓ 15 yaşa çatmış uşaqlarda isə,bu göstərici 12%-ə düşdü
- ✓ Böyüklər üçün bu daha kədərlidir:
- ✓ Onların 2%-dən azı «yaradıcı dahi»qrupuna aiddirlər

# Münaqişələrin müasir həll üsulları

**Arbitraj**- münaqişənin həllinə üçüncü tərəfi daxil etməkdir. İki tərəf arasında olan münaqişələrin həllinə vasitəçiləri cəlb etmədən nail olmaq çətindir.

**Meliorativlik**- münaqişənin meliorativ (vəziyyətin ardıcıllıqla yaxşılaşmasını nəzərdə tutan) həllinə nail olmaq onun qəti həllinə nail olunmasına çalışmaqdan daha yaxşıdır. Bu çox hallarda «ya hər şey, ya heç nə» prinsipi ilə hərəkət etmək olmaz deməkdir.

**Seqmentasiya**- münaqişənin predmetini çox sayda tərkib hissələrə parçalanması deməkdir. Bu, tərəflərin mövqelərində təmas nöqtəsini görməyə və razılığa gəlməyə, əməkdaşlıq etməyə imkan verir

**Legitimləşmə**- münaqişənin həllində tərəflərin hüquq və səlahiyyətlərinin tanınması və ya qanuniliyinin təsdiq edilməsidir, yəni münaqişənin həlli bütün tərəflərin və ətrafdakıların qəbul etdikləri dəyərlərə əsaslanmalıdır. Belə halda qarşılıqlı inciklikler az olar və münaqişənin həlli daha möhkəm olar.

# Müəllimlərə və valideynlərə psixoloji tövsiyələr

- Özünüz nümunə olun (Şəxsi nümunə modeli)
- Uşaqlarla tez-tez göz kontaktı quraraq söhbət edin ( Sağlam kontakt)
- Danışarkən onların sözünü kəsməyin, aktiv dinləmə metodundan istifadə edin;
- Öz həyat təcrübələrinizi onlarla bölüşün
- Onların davranışını idarə edən səbəbləri araşdırın
- Problemləri ilə maraqlanın
- Bacarıqlarını, bilik səviyyələrini müəyyən edin
- Qarşılıqlı hörmət mühiti yaradın
- Qaydaları uşaqlarla birlikdə müəyyənləşdirin
- Ən kiçik təşəbbüslərini belə dəstəkləyin və onları ruhlandırın





Dinlədiyiniz mətndən 5, 10, 15, 20, 25, 30, 35, 40, 45 və 50 söz yazın. (Cəmi 10 söz)

# Foyedə arzular ağacı



# Həyata pozitiv baxış

## Hər kəs yanındakına gülümsəyərək xoş bir cümlə desin



Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bakı Şəhəri üzrə Təhsil İdarəsi

Təlimə Dəstək Mərkəzi

AZ 1007, Azərbaycan Respublikası, Bakı şəhəri, Xan Şuşinski – 17

www.tdm.edu.az

info@tdm.edu.az

telimedestek@gmail.com

www.fb.com/tdm.edu.az

# Həyata xoş duyğularla və xoş sözlərlə gülümsəyin